# BİBLİOQRAFİK FƏALİYYƏTDƏ BİOBİBLİOQRAFİK JANR

**Xuraman AĞAYEVA**
*Bakı, BDU,*
khuraman_v@mail.ru

***Биобиблиографический жанр в библиографической деятельности***
***Резюме:*** *Для удовлетворения потребностей сегодняшнем информационном веке, статье определяется библиографических ресурсов который является одним из системы из личных библиографических библиографических ресурсов. Показатели личного ассистента и личные рекомендации в этой области и предоставляет информацию о Серия основанных в различных библиотек.*
***Biobibliographic genre on the bibliographic activities***
***Abstract:*** *To meet the demands of today's information age, in the article determined the role of one of the bibliographic resources personal bibliography in the system of bibliographic resources. Indicators of personal research assistant and personal recommendations in this area and provides information about the Series founded in various libraries.*

***Açar sözlər:*** *biblioqrafik informasiya, biblioqrafik vəsait, , biblioqrafik axtarış, şəxsi biblioqrafiya, biobliqrafik janr*
***Key words:*** *bibliographic information, bibliographic resources, bibliographic search, personal bibliography, biobliographic genre*
***Ключевые слова:*** *библиографическая информация, библиографические ресурсы, библиографический поиск, личный библиография, библиографический жанр*

**Giriş.**

Cəmiyyətin istənilən inkişaf mərhələsində biblioqrafik informasiya təminatı zərurətə çevrilmiş və bu tələbatın ödənilməsinin müxtəlif tarixi mərhələləri formalaşaraq bu günkü səviyyəyə gəlib çatmışdır. Bu gün yaşadığımız informasiyalaşmış cəmiyyətdə də fəaliyyət sahələrindən asılı olmayaraq hər bir şəxsin informasiya tələbatının öyrənilməsi, ödənilməsi, həmin şəxsin informasiya tələbatına realevant informasiya təminatı biblioqrafiyaşünaslığın qarşısında duran əsas məsələdir.

Biblioqrafik fəaliyyət müxtəlif sahələrin sənədlər haqqında informasiyaya olan tələbatının ödənilməsinə xidmət edir. Biblioqrafik fəaliyyət QOST 7.0-84 Dövlət Standartında "İnformasiya fəaliyyətinin biblioqrafik informasiyaya olan tələbatın ödənilməsi üzrə sahəsidir"(5,s.2) kimi dəyərləndirilir.

Tarixi təkamül nəticəsində biblioqrafik fəaliyyətin formaları tədricən inkişaf edir, dəyişir, bu sahədə yeni-yeni istiqamətlər əmələ gəlir və bu fəaliyyətin

nəticəsi olan biblioqrafik məhsulun da müxtəlif növləri, formaları, tipləri və janrları yaranır.

Məlumdur ki, biblioqrafik fəaliyyətin sırf elmi, nəzəri istiqaməti biblioqrafiyaşünaslıq elminin yaranması ilə nəticələnmişdir. Bu fəaliyyətin əməli, praktik istiqaməti isə inkişaf prosesində biblioqrafiyalaşdırma və informasiya tələbatlarına biblioqrafik xidmət kimi fəaliyyət növlərinin yaranmasına səbəb olmuşdur. (6,s.86) Bibiblioqrafik fəaliyyət nəticəsində biblioqrafiyalaşdırmanın məhsulu olan biblioqrafik vəsaitlər də inkişaf edir, təkmilləşir, ixtisaslaşır və yeni-yeni növləri və rəqəmsal formaları yaranır.

2.Məsələnin qoyuluşu:

İnformasiya tələbatının ödənilməsində biblioqrafik informasiya və onun əks olunduğu mənbələr də mühüm rol oynayır. Bu onunla izah olunur ki, biblioqrafik informasiya ikili xüsusiyyətə malikdir. Yəni, biblioqrafik informasiya sosial informasiyanın əks olunduğu sənədlər və informasiya tələbatçıları arasındakı maneələri aradan qaldırmaq və uygunluqları həyata keçirmək işinə kömək edir.(1,s.44) Biblioqrafik informasiya müəyyən formaya və qaydaya salınmış mənbələrdə əks olunur ki, həmin mənbələr biblioqrafik vəsaitlər adlanır. Professor Z.Əliyevin qeyd etdiyi kimi, biblioqrafik informasiyanın cəmiyyət üzvləri tərəfindən səmərəli istifadə olunmasını təmin edən formaya biblioqrafik vəsait adı verilir.(1,s.22) Belə olduğu halda "biblioqrafik vəsait ənənəvi biblioqrafik informasiyanın ötürülməsində əsas vasitədir" qənaətinə gəlmək olar. Təbii ki, biblioqrafik vəsait müxtəlif təyinatlara və növ baxımından fərqli xüsusiyyətlərə malikdir.Biblioqrafik vəsait formalarına, tiplərinə, janrlarına görə fərqləndirilir.

Biblioqrafik vəsaitlər janra görə fərqləndirilərkən biblioqrafik monoqrafiya-böyük sənəd kütləsinin hərtərəfli dəqiqliklə meydana çıxarılması və dərindən öyrənilməsi əsasında yaradılan elmi-köməkçi istiqamətli iri biblioqrafik vəsait, özündə metodik məsləhət və tövsiyələrlə əlaqədar mövzular üzrə sənədlər və biblioqrafik mənbələr haqqında məlumat verən ədəbiyyat bələdçiləri, ayrı-ayrı şəxslər haqqında bioqrafik, onların əsərləri və haqqında ədəbiyyat üzrə biblioqrafik məlumatı birləşdirən biobiblioqrafik lüğətlər, mütaliənin tərkibini və ardıcıllığını dəqiqliklə tənzimləyən mütaliə planları, kitablar haqqında söhbətlərə bölünür.(1, s.25)

Biblioqrafik vəsaitlər sənədlərin biblioqrafiyalaşdırılmasının obyektinin məzmunundan asılı olaraq müxtəlif növlərə bölünür ki, bunlar aşağıdakılardır: (6,s.101)

1. Universal
2. Çoxsahəli
3. Sahəvi
4. Mövzu
5. Şəxsi
6. Diyarşünaslıq
7. Ölkəşünaslıq



**Məsələnin həlli yolları**

Biblioqrafik vəsaitlərin hər növü informasiya tələbatının ödənilməsində mühüm əhəmiyyətə malikdir. Biblioqrafik vəsaitlərin növlərinin yaranması prosesinə təsir edən amillər geniş bir tədqiqatın obyektidir. Müxtəlif istiqamətli biblioqrafik informasiya tələbatı biblioqrafik vəsait növlərinin, tiplərinin, janrlarının yaranmasına səbəb olmuşdur və onun hər bir növünün öz rolu, öz funksiyası vardır. Onların içərisində biblioqrafik vəsaitlərin janrlarından biri olan biobiblioqrafik lüğətlərin-yəni şəxsi biblioqrafik göstəricilərin xüsusi çəkisi vardır. Nəzəri ədəbiyyatda biobiblioqrafik janrın ilk nümunələrinin təzkirələr olduğu qeyd edilir. Bu barədə professor Z.Əliyevin və dosent Ə.Xələfovun elmi-yaradıcılığında geniş məlumat verilir. Bu məqalədə isə təzkirələrin müasir forması olan və tədqiqatçıların ən çox müraciət etdikləri şəxsi biblioqrafik göstəricilər haqqında məlumat veriləcəkdir.

QOST 7.0-84 Dövlət Standartının "Biblioqrafik vəsaitlər" adlı bölməsində vəsaitlərin bir çox növü ilə yanaşı şəxsi biblioqrafik göstəricinin də tərifi verilir və "Şəxsi biblioqrafik göstərici (siyahı, xülasə) bir şəxsə həsr edilmiş göstəricidir" (5, s.8) kimi dəyərləndirilir. Professor Z.Əliyevin "Azərbaycan biblioqrafiyasının tarixi" (2007)(3) dərsliyində göstərildiyi kimi müəyyən elmi və ya tədris kollektivinin nailiyyətləri o kollektivi təşkil edən şəxslərin əməyinin məcmusundan ibarətdir. Konkret sahələrdə ayrı-ayrı şəxslərin əməyi o qədər əhəmiyyətli olur ki, həmin sahədə tədqiqat aparan tələbatçıların sahə ilə bağlı şəxsin yaratdığı əsərlər haqqında tam, dolğun informasiyaya malik olmaları vacib olur. Məsələn, sosial-siyasi və fəlsəfi elmlər üzrə elmi-tədqiqat aparan tələbatçılar "Heydər Əliyev:biblioqrafik məlumat kitabı"na (2003) və "Ramiz Mehdiev"(2009) biblioqrafik göstəricisinə müraciət etməklə bu sahənin biblioqrafik informasiya təminatını daha dərindən öyrənə bilərlər.

Kimya sahəsinin biblioqrafik informasiya təminatında akademik Y.Məmmədəliyevin və akademik A.Məhərrəmovun əsərlərini öyrənməklə və bu sahədə mükəmməl biblioqrafik informasiya mənbələrinin olduğunu bilməklə sahə üzrə daha mükəmməl tədqiqat apara bilərlər. Bu səbəbdən də şəxsi biblioqrafik göstəricilər ayrı-ayrı elm sahələrinin informasiya tələbatının

ödənilməsində böyük əhəmiyyətə malikdir. Şəxsi biblioqrafik göstəricilər cəmiyyətin biblioqrafik informasiyaya olan tələbatının ödənilməsində mühüm yer tutur. Respublikamızın aparıcı kitabxanaları müxtəlif elm sahələrində çalışmış şəxslərə həsr edilmiş çoxsaylı şəxsi elmi-köməkçi və şəxsi tövsiyə göstəriciləri hazırlayıb nəşr edirlər.

Şəxsi biblioqrafik göstəricilər içərisində elmi-köməkçi göstəricilər xüsusi rol və əhəmiyyətə malikdir. Belə göstəricilər tanınmış mütəxəssisin, alimin, ictimai xadimin əsərləri, onun haqqında yazılmış əsərlər haqqında tam, dolğun biblioqrafik informasiya verməklə, mürəkkəb biblioqrafik sorğuların öyrənilməsində mühüm mənbə sayılır. Cəmiyyətin biblioqrafik informasiya verdiyi tələblərin dəyişməsi ilə əlaqədar olaraq biblioqrafik vəsaitin janrlarından biri olan şəxsi biblioqrafik göstəricilər də tarixi təkamül prosesindən keçir,

təkmilləşir və inkişaf edir. Bu zaman belə bir sual qarşıya çıxır. Biobiblioqrafik lüğətlər-şəxsi biblioqrafik göstəricilər biblioqrafik vəsaitlər sistemində yeri nədən ibarətdir və onların biblioqrafiyalaşdırılmasında hansı yeni metodikadan istifadə edilir.

Əks olunmuş biblioqrafik informasiyanın xüsusiyyətləri baxımından və özünəməxsus obyekti olan şəxsi biblioqrafiq vəsaitlər digər biblioqrafik vəsaitlərdən fərqlənir. Şəxsi biblioqrafiq vəsaitlərin xarakterik xüsusiyyətləri yalnız bir şəxs haqqında biblioqrafik informasiya mənbəyi olmasında, həmin şəxsin həyatı, yaradıcılığı, elmi, elmi-təşkilati, pedaqiji fəaliyyəti haqqında informasiyanı əks etdirməsindədir. Hər hansı bir şəxsin əsərləri onun haqqında ədəbiyyat, həyatı və ictimai və pedaqiji fəaliyyəti haqqında informasiyanı əks etdirən sənədlər şəxsi biblioqrafiyanın özünəməxsus obyektidir. Şəxsi biblioqrafik vəsaitlərin tərtib olunmasında məqsəd görkəmli şəxsin həyat və yaradıcılığını, əsərlərini, ictimai, təşkilati fəaliyyətini və haqqında olan ədəbiyyatı xarakterizə etməklə bir növ onun portretini cəmiyyətə biblioqrafik informasiya vasitəsilə təqdim etməkdir.

Biobiblioqrafik lüğət olan şəxsi biblioqrafik vəsaitlər konkret məqsəd və oxucu istiqamətinə görə iki növə ayrılır: 1.Şəxsi elmi-köməkçi biblioqrafik vəsaitlər; 2.Şəxsi tövsiyyə biblioqrafik vəsaitlər.

Əvvəla onu qeyd edək ki, dövlət standartında şəxsi biblioqrafik vəsait formasından (tipindən) asılı olaraq "göstərici" kimi qəbul edilir. Çünki həm rus dilində, həm də azərbaycan dilində yazılmış nəzəri mənbələrə görə şəxsi biblioqrafik vəsaitlər mürəkkəb quruluşa və köməkçi aparata malikdir. Bu şəxsi biblioqrafik vəsaitlərə xas olan tipik cəhətdir. Azərbaycan biblioqrafiyasının tarixində 10 köməkçi aparatı olan "Azərbaycan kitabı"(1963) və 23 köməkçi aparatı olan "Paşa Qəlbinur"(2005) göstəricisi məlumdur. Elmi ədəbiyyatda mürəkkəb quruluşa və köməkçi aparata malik olan vəsaitlərə biblioqrafik göstərici deyilir.(6,s.22) Bu nöqteyi-nəzərdən "Şəxsi biblioqrafik vəsaitlər" deyil, "şəxsi biblioqrafik göstərici" anlayışından istifadə etmək daha düzgündür.

Şəxsi elmi-köməkçi biblioqrafik göstəricilər elmi tədqiqat fəaliyyətinin biblioqrafik informasiya təminatını ödəmək məqsədilə yaradılan biblioqrafik vəsaitlərdir. Tanınmış biblioqrafik alim, professor Z.Əlievin sözləri ilə desək "Biblioqrafik informasiya xidmətinə ehtiyacı olan ən mühüm sahələrdən biri elmi tədqiqat fəaliyyətidir və biblioqrafik informasiya tələbatçılarını ən fəal, fəal və fəal olmayan qruplara bölmək mümkün olsa, onda elmi-tədqiqat işçiləri ən fəallarından hesab edilə bilər.(2,s.120) Bu baxımdan şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərinin xüsusi biblioqrafiyanın bir növü olduğunu, biblioqrafik informasiyanın axtarış və kommunikativ funksiyasını yerinə yetirdiyini və istifadəçilərin biblioqrafik informasiya təminatında mühüm rolu olduğunu əminliklə söyləmək olar.

Şəxsi tövsiyə biblioqrafik göstəricilər də xüsusi biblioqrafiyanın bir növüdür və biblioqrafik informasiyanın qiymətləndirmə funksiyasını yerinə yetirir. Tövsiyyə göstəricilərində ən başlıca cəhət ən yaxşı ədəbiyyatı seçərək təbliğ etməsindədir. Şəxsi tövsiyə biblioqrafik göstəricilərini şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərindən fərqləndirən əsas cəhət isə keçmişdə çıxan hər hansı kitab və ya sənəd öz əhəmiyyətini itirmişdirsə bu şəxsi tövsiyə göstəricilərinə daxil edilmir. Çünki keyfiyyətli seçmə meyarı vardır. Şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərində isə sahə ilə bağlı bir sənəd belə kənarda qala bilməz. Daha bir cəhət şəxsi tövsiyə biblioqrafik göstəricilərinin vəzifəsi təhsilə, şəxsi təhsilə, mənəvi əxlaqi tərbiyəyyə, şəxsiyyətin hərtərəfli inkişafina məqsədyönlü təsir göstərməkdən ibarətdir. Şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərinin vəzifəsi isə elmi-tədqiqat, istehsalat və idarəetmə işinə kömək etməkdən və haqqında bəhs olunan şəxsin əsərlərinin heç bir məhdudiyyət qoyulmadan təbliğ olunmasından ibarətdir. Bu baxımdan şəxsi tövsiyə biblioqrafik göstəricilər sahəvi, şəxsi elmi-köməkçi biblioqrafik göstəricilər isə universal göstəricilər hesab oluna bilər.



Azərbaycanda şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərinin tərtibində 1960-cı illərin ikinci yarısından (1964) başlayaraq bir canlanma olmuş və bu sahədə xeyli uğurlar əldə edilmişdir. Həmin dövrdə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti akademiyanın həqiqi üzvlərinə və müxbir üzvlərinə yubileyləri ilə əlaqədar şəxsi biblioqrafik vəsaitlərin hazırlanması haqqında qərar qəbul etmiş və bu vəzifəni AMEA MEK-ə tapşırmışdır. Həmin dövrdən başlayaraq Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası "Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri" seriyasında 200-dən artıq şəxsi elmi-köməkçi biblioqrafik göstərici hazırlayıb çap etdirmişdir.(4,s.14-62) Onlardan 100-ə yaxını müstəqillik illərində nəşr olunan vəsaitlərdir.

**Nəticə**

Biblioqrafik vəsaitlərin biobiblioqrafik janrı XX əsrin sonlarında daha da inkişaf etməyə başlamış, 90-ci illərdə Pespublika Elmi-Pedaqoji Kitabxanasında "Azərbaycanın görkəmli maarif xadimləri" seriyası, XXI əsrin əvvəllərində Bakı

Dövlət Universitetində "Azərbaycanın görkəmli dövlət xadimləri" seriyası və M.F.Axundov adına Milli kitabxanada "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası təsis edilmişdir. Hazırda bu istiqamətdə mühüm işlər görülür.

Qeyd olunduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərin tərtib olunması sahəsindəki fəaliyyəti 1964-cü ildən başlamışdır. "Azərbaycanın elm və mədəniyyət" xadimləri seriyası altında çıxan ilk şəxsi elmi-köməkçi biblioqrafik göstərici Mirəsədulla Mirqasımova həsr edilmiş və 1964-cü ildə nəşr edilmişdir. Bunun ardınca "A. Makovelski", "Heydər Hüseynov", "M. A. Dadaşzadə", "Səməd Vurğun" və s. kimi şəxsi elmi-köməkçi biblioqrafik göstəricilər tərtib olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının əməkdaşları tərəfindən tərtib olunmuş göstəricilərin tərtibi metodikasını günü-gündən təkmilləşdirilməsi istiqamətində işlər görülmüşdür. Onlar elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılığına dair materialların əhatə olunmasında yeni metodlar işləyib hazırlamışlar. Bunun üçün xüsusi

metodiki təlimat kitabçaları, vəsaitlər hazırlanaraq biblioqrafların istifadəsinə verilmişdir. Məhz bunun nəticəsidir ki, müasir dövrdə tərtib edilmiş şəxsi elmi-köməkçi bib-lioqrafik göstəricilər tərtib metodikası və digər meyarlar baxımından öz sələflərindən ciddi şəkildə fərqlənir və mükəmməl təkmilləşdirilmiş biblioqrafik informasiya mənbəyinə çevrilməkdədir.

Bütün bu deyilənlərlə əlaqədar bir sıra tövsiyyə və təklifləri də qeyd etmək məqsədə uyğun olardı:

- Şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərin tərtibi ilə vahid qaydaları və yeni metodları özündə əks etdirən metodik vəsaitlərin hazırlanması və nəşri qarşıda duran əsas vəzifələrdəndir.

- Vaxtı ilə buraxılmış ən samballı şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərin yenidən işlənmiş, əlavələr edilmiş nəşrinin hazırlanması və çap edilməsi və elektron kitabxanada yerləşdirilməsi vəsaitlərin oxucu kontingentini artırar.

- Ən əhəmiyyətli şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərin verilənlər bazasının yaradılması İnternet saytında yerləşdirilməsi əsas məsələdir.

Yekun olaraq onu da qeyd etmək lazımdır ki,biblioqrafik vəsaitlərin janrlarından olan şəxsi biblioqrafik göstəricilər Azərbaycan biblioqrafik vəsaitlər sisteminin çox mühüm tərkib hissəsidir və onların tərtibi, metodiki xüsusiyyətlərinin təkmilləşdirilməsi məsələləri daim alim və tədqiqatçıların diqqət mərkəzində olmalıdır.

**Ədəbiyyat**


1. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq:Dərs vəsaiti.-Bakı: BDU nəşriyyatı, 2001.- 141 s.
2. Əliyev Z.H. Azərbaycanda elmi-köməkçi biblioqrafiya müasir mərhələdə //Bakı Universitetinin Xəbərləri:Humanitar eımlər seriyası.-1994.-№ 1.-s.120-127.
3. Əliyev Z.H.Azərbaycan biblioqrafiyasının tarixi.-Bakı, 2007.-141 s.
4. İsmayılov N.İ.Azərbaycan biblioqrafiyasının biblioqrafiyası:biblioqrafik vəsaitlərin göstəricisi.-Bakı,Mütərcim, 2003.- 121 s. 14-62 5.ГОСТ 7.0-84. Библиографическая деятельность: Основные термины и определения, - М., 1985. – с. 8
5. Коршунов О. П. Библиографоведение. Общий курс: Учебник. – Москва, 1990, с. 86


*Məqalə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının 15 aprel 2015-ci ili tarixli 8 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.*
*Rəyçilər: dosent N.İ İsmayılov, dosent əvəzi S.P.İsmayılova*